***❐ Bu il iyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə üzrə müşavirə keçirilib. Dövlətimizin başçısı qeyd edib ki, ölkəmizdə kənd təsərrüfatı istiqamətində atılan addımlar artıq real nəticələr verir və kənd təsərrüfatı uğurla inkişaf edir. Prezident əmin olduğunu bildirib ki, qeyri-neft sektorunun inkişafı, vətəndaşların məşğulluğunun yüksəldilməsi, ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində aparılan tədbirlər bundan sonra da uğurla davam etdiriləcək.***



# İMİŞLİ: aqrar sahədə uğurlu nəticələr əldə edilir

## Bu il rayonda taxılçılıqda orta məhsuldarlıq 5 sentner artıb

**Kənd təsərrüfatında bu il rekord göstərici əldə olunub. Qeyd etdiyim kimi, bu, aparılan islahatlar nəticəsində mümkün olub. Müxtəlif istiqamətli addımlar kənd təsərrüfatında canlanmaya gətirib çıxarıb. Əlbəttə ki, dövlət dəstəyi, hər zaman olduğu kimi, bu il də göstərilir, bundan sonra da göstəriləcək.**

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Tədbirdə kənd təsərüfatı naziri İnam Kərimov bildirib ki, dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə aqrar islahatlar uğurla davam etdirilir. Onun sözlərinə görə, bu istiqamətdə görülmüş sistemli tədbirlər öz müsbət nəticələrini verməkdədir. Bütün sahələrdə, həmçinin bitkiçilik və heyvandarlıq sahələrində artım müşahidə edilir.

Son illər ölkəmizin sürətlə inkişaf edən bölgələrindən biri də İmişli rayonudur. Qeyd edək ki, İmişli kənd təsərrüfatı və emal sənayesi üzrə böyük potensialı olan rayonlardandır. Son illər rayonda aqrar sektorun, demək olar ki, bütün sahələri üzrə müsbət nəticələr əldə olunur. Bu tendensiya cari ilin əvvəlindən də qorunub saxlanılır.

İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev dedi ki, rayon iqtisadiyyatında əldə olunan uğurlar, ilk növbədə Azərbaycan dövlətinin, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Azərbaycanın bütün bölgələri kimi, İmişli rayonunun sosial-iqtisadi inkişafına göstərdiyi böyük diqqət və qayğının sayəsində mümkün olub. RİH başçısı, həmçinin qeyd etdi ki, rayonda yenə də pambıq, taxıl, çuğundur əsas bitkiçilik sahələri kimi qalmaqdadır.

Qeyd etmək lazımdır ki, bu il İmişlidə taxılçılıq sahəsində ürəkaçan nəticələr əldə olunub. Belə ki, 2019-cu ilin məhsulu üçün 2018-ci ilin payızında 19 min hektardan çox sahədə taxıl səpini aparılmışdır.









Həmin sahənin 6 min 322 hektarını arpa, 12 min 715 hektarını isə buğda sahələri təşkil etmişdir. Bugünə qədər rayonda 19 min hektar sahədən 70 min 821 ton taxıl məhsulu götürülmüşdür. Bununla da, rayon üzrə 21 min 621 ton arpa, 49 min ton buğda məhsulu toplanmışdır.

Sevindirici haldır ki, rayon taxılçıları bu il əkin sahələrinin orta məhsuldarlığının xeyli artırılmasına nail ola bilmişlər. Belə ki, əgər 2018-ci ildə rayonda taxıl sahələrinin orta məhsuldarlığı 29 sentner olmuşdursa, bu il həmin rəqəm 34 sentnerə çatdırılmışdır. Yeri gəlmişkən, rayonda buğda əkini sahələrinin orta məhsuldarlığı daha çox – 38,7 sentner olmuşdur.

İmişlidə torpağın "dilini bilən" qabaqcıl fermerlər çoxdur. Oruclu kənd sakini Siyab Abdulov da məhz belə səriştəli fermerlərdən biridir. S.Abdulovun başçılıq etdiyi fermer təsərrüfatı 2019-cu ildə 50 hektar sahədə buğda əkini aparmışdır. Yüksək bacərmə, düzgün aqrotexniki qulluq sayəsində bu sahədən 200 tondan çox məhsul əldə olunmuşdur. Orta məhsuldarlıq 40 sentner təşkil etmişdir.

Bundan əlavə, fermer 20 hektar ərazidə dənlik qarğıdalı bitkisi əkmişdir. Bu sahənin hər hektarından isə 60 sentner məhsul əldə olunmuşdur.

S.Abdulov əkinçiliklə yanaşı heyvandarlığın inkişafı ilə də məşğul olur. Onun başçılıq etdiyi fermer təsərrüfatının üzvləri hazırda 160 hektar qış-otlaq sahəsində 600-700 baş davar bəsləmişlər.

Fermer S.Abdulov məlumat verdi ki, təsərrüfatda 400 baş damazlıq üçün ana qoyun saxlanılır, il ərzində hər 100 başdan 115 baş bala alınır. Təsərrüfatda olan qoyunlar əsasən Qarabağ cinsidir. Bu fermer təsərrüfatında 6 ailə çalışır.

**Bu məqamda fermer Siyab Abdulovun ürək sözlərini qeyd etmək istəyirəm. Fermer dedi:**

– Azərbaycan dövləti kənd təsərrüfatının inkişafına böyük qayğı göstərir. Fermerlərə güzəştli şərtlərlə kreditlər verilir, onlar əlverişli qiymətlərlə lazımi texnika ilə təchiz olunurlar. Bütün bunlar məhsul istehsalını artırmaq, son nəticədə insanların daha yaxşı yaşamasını təmin etmək üçündür. Son vaxtlar kəndimizin əhalisinin güzəranı çox yaxşılaşıb. Mən öz adımdan, fermer təsərrüfatının bütün üzvləri adından bunlara görə möhtərəm Prezidentimizə minnətdarlıq etməyi özümə borc bilirəm.

Cəfərli kənd sakini Əmir Səmədov isə qoyunçuluq təsərrüfatına rəhbərlik edir. Onun başçılıq etdiyi fermer təsərrüfatında hazırda 420 baş davar var. Təsərrüfatda damazlıq işləri yaxşı təşkil olunub. Hər 100 baş qoyundan 110 baş bala əldə olunur. Bu təsərrüfatda 3 ailənin üzvləri çalışırlar.

Fermer Ə.Səmədov deyir ki, hazırda Azərbaycanın hər yerində olduğu kimi, İmişlidə də son illər bütün sadə, zəhmətsevər insanların ruzisi artıb. O, bir Azərbaycan vətəndaşı olaraq, ölkəmizdə bərqərar olmuş sabitliyə, rifaha görə dövlətimizə, xalqımızın müdrik lideri möhtərəm İlham Əliyevə minnətdarlıq etdi.

İmişlidə təkcə taxılçılıq və heyvandarlıq deyil, başqa sahələrdə də yaxşı göstəricilər əldə edilib. Məsələn, baramaçılıq sahəsində işlər uğurla gedir. Cari ildə rayon ərazisində 152 kümçüyə ipək qurdu paylanılıb. Rayon kümçüləri 9 min 551 kiloqram yaş barama istehsal edərək təhvil veriblər. Kümçülər bu il ötən ildə olduğundan daha çox qazanc əldə ediblər.

İmişli Rayon Aqrar İnkişaf Mərkəzinin rəhbəri Səlim Məhərrəmov dedi ki, bu il rayonda 7 min 492 hektar torpaq sahəsində pambıq əkilmişdir. Yaxın günlərdə rayonda "ağ qızıl"ın yığımına start veriləcək. Sahələrdən bol məhsul gözlənilir. İndi əsas vəzifə, minbir zəhmət hesabına yetişdirilən məhsulu son qozasınadək toplamaqdır.

Rayonda kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq üçün əkin sahələrinin genişləndirilməsi üçün davamlı işlər görülür. S.Məhərrəmov məlumat verdi ki, Azərbaycan Respublikasında "Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq, İmişli rayonunun inzibati ərazisində yerləşən qış otlaq sahələrindən 10 min 211 hektar torpaq sahəsinin Nazirlər Kabinetinin qərarı ilə təyinatı dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilmişdir. 6 min hektar qış otlaq sahəsinin isə təyinatının dəyişdirilməsi üzrə sənədləşmə işləri aparılır.

İmişlidə aqrar sahədə əldə olunan uğurlar rayonun sosial-iqtisadi inkişafına öz müsbət təsirini göstərir. İmişli rayonunda təkcə 2019-cu ilin yanvar-iyun aylarında 1500-dən çox iş yeri açılmışdır. Rayonda gəlirləri ehtiyac meyarından aşağı olan 455 ailəyə ünvanlı sosial yardımların verilməsi təmin edilmişdir.

RİH başçısı V.Hacıyev inamla dedi ki, İmişli sakinləri bundan sonra da ümummilli liderimiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin öhdəsindən ləyaqətlə gəlməyə çalışacaq, dövlətçiliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində bütün qüvvələrini sərf edəcəklər.

***Səməd HÜSEYNOĞLU,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***